**Yüksək təşkilatçılıq bacarığına malikdir. Mehribanlığı, səmimiyyəti və təvazökarlığı ilə seçilir. Qayğıkeş və diqqətlidir. Məsuliyyət hissinin güclülüyü onu həmişə işinə ciddi yanaşmağa sövq edir. Bütün bu keyfiyyətlər son nəticədə Lətifə xanıma uğur gətirmişdir. Harada, hansı vəzifədə olmuşdursa başqalarından fərqlənmiş, halal zəhməti ilə bölgədə nüfuz qazanmışdır...**



# Oxuculara nümunəvi xidmət

## fəaliyyətimizin əsasını təşkil edir.

Söhbət Füzuli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Lətifə Xudaverdiyevadan gedir. Gəlin, onun ömür kitabını birgə vərəqləyək.

**Səliqə-sahman göz oxşayır...**



Xudaverdiyeva Lətifə Yolçu qızı 1959-cu il oktyabrın 1-də Füzulidə anadan olub. Əmək fəaliyyətinə 1980-ci ildə Arayatırlı kənd mədəniyyət evində bədii rəhbər kimi başlayıb. 1982-ci ildə N.Krupskaya adına kitabxanaçılıq texnikumunu, 2006-cı ildə Müəllimlər İnstitutunu bitirib.

2006-cı ildə Horadiz şəhər mədəniyyət evinin bədii rəhbəri vəzifəsinə irəli çəkilib. 2007-ci ildə MKS-in direktor müavini təyin olunub. 2009-cu ilin sentyabr ayından Füzuli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru vəzifəsində çalışır.

Lətifə xanım sonuncu vəzifədə 7 aydır ki, fəaliyyət göstərir. Qazandığı göstəricilərə gəlincə heyrətlənməyə bilmirsən. Qısa müddət ərzində bu cür uğura imza atmaq yalnız səriştəli əmək təcrübəsinə, yüksək təşkilatçılıq bacarığına malik adamlara məxsusdur.

Söhbət zamanı öyrəndik ki, Füzuli Rayon MKS 1948-ci ildə yaradılmışdır. O zaman ətrafında 91 kitabxananı birləşdirmişdir. Bədnam qonşularımızın mənfur siyasətləri, torpaqlarımıza xaincəsinə hücumu nəticəsində min bir zəhmət hesabına illərlə toplanmış mədəni dəyərlərimiz qarət edilmiş, yandırılmış, talan olunmuşdur.

Bu, kitabxanalardan da yan ötməmişdir. 389 min nüsxə ədəbiyyat fondu tamamilə məhv edilmişdir. Odur ki, burada hər şeyi lap əvvəldən, necə deyərlər, sıfırdan başlamaq lazım gəlmişdir.

O günləri Lətifə xanım belə xatırlayır:

- 1994-cü ildə rayonumuzun 25 yaşayış məntəqəsi işğaldan azad olunduqdan sonra kitabxanaların bir qismi öz fəaliyyətlərini başqa məqsədlər üçün tikilmiş binalarda və şəxsi evlərdə bərpa etmişdir.

Fondumuz möhtərəm prezidentimizin, yazıçı və ziyalıların, habelə Milli Kitabxana və Kitab Kollektorunun hədiyyə etdikləri ədəbiyyatlar, Mədəniyyət və Turizm Nazirliyinin müvafiq göstərişi ilə İmişli, Ağcabədi, Zərdab, Ağsu və digər rayonların MKS-i tərəfindən əvəzsiz olaraq ayrılmış kitablar hesabına bərpa olunmuşdur.

2010-cu il aprelin əvvəlinə olan məlumata əsasən fondumuz 33230 nüsxə kitabdan ibarətdir. Hesabat ilində oxucularımızın sayı 6522 nəfərə, kitab verilişi 39040 nüsxəyə bərabər olmuşdur.

Cəmi 72 nəfər işçimiz var. Onların birgə səyi ilə tarixi əlamətdar günlər, elm və mədəniyyət xadimlərimizin yubileyləri, kitaba oxucu marağının artırılması ilə bağlı rəngarəng tədbirlər keçirilmişdir.

Maddi-texniki bazanın möhkəmləndirilməsi də daim diqqət mərkəzindədir. Zobucuq adlanan ərazidə salınmış 5 qəsəbədən heç birində kitabxana olmadığı nəzərə alınaraq Füzuli Rayon İcra Hakimiyyətinin başçısı cənab Nəbi Muxtarovun təşəbbüsü ilə mərkəzi kitabxana I Zobucuq qəsəbəsinə köçürülmüşdür. Zobucuqda olarkən öyrəndik ki, onları düşmən səngərlərindən cəmi 3 kilometrlik məsafə ayırır. Buna baxmayaraq Lətifə xanım və onun rəhbərliyi altında çalışan Həcər qeyrətli xanımlarımız heç nədən çəkinmir, onlara həvalə edilmiş işin öhdəsindən ləyaqətlə gəlirlər. Söhbət zamanı həmçinin bəlli oldu ki, 13 kənd filialı şəxsi evlərdən çıxarılaraq şəraiti olan ictimai binalarda yerləşdirilmişdir.



**Mühüm vəzifələr qarşısında...**

Hazırda MKS 33 kitabxananı, o cümlədən 31 kənd, 1 mərkəzi və 1 şəhər kitabxanasını birləşdirir. Kitabxanamızın VEB-saytı açılmışdır. Kitabxana haqqında məlumatlar foto-şəkillərlə birgə sayta yerləşdirilmişdir.

**Keçən il «Ən yaxşı kitabxanaçı» devizi altında yarış keçirilmiş, qalib adını Horadiz şəhər kitabxanası qazanmışdır. Kitabxana işçiləri pulla mükafatlandırılmışdır. Bu ənənə bundan sonra da davam etdiriləcəkdir...**

**E.HƏSƏNQIZI**